# Fransa Ermənistandan sadəcə istifadə edir



"Dünyanın bir sıra yerlərində müstəmləkəçillik siyasəti aparan Fransa Cənubi Qafqazda nüfuz sahibi olmaq üçün İrəvandan oyuncaq kimi istifadə edir. Paris Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda yeni müharibə ocağı yaratmağa çalışır. Bu, bir daha Fransanın necə ədalətsiz mövqedə durduğunu sübut edir".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. O bildirib ki, Nikol Paşinyanın son dövrlər atdığı addımlar Ermənistanın gələcəyi üçün yaxşı heç nə vəd etmir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistanın Qərbə üz tutaraq Fransadan silah alması, ABŞ hərbçiləri ilə birlikdə təlim keçirməsi Paşinyan hakimiyyəti üçün başağrısından başqa bir şey deyil. Paşinyan əməlli-başlı yanılır. O, Avropa Parlamentində çıxışı zamanı parlamentarilərin onu ayaqüstə alqışlamasını özünün qələbəsi kimi qəbul edir. Əslində isə, avropalı deputatlar özlərinin Ermənistan üzərindəki qələbələrini alqışlayırdılar. Fransa və ona müttəfiq dövlətlər Ermənistanı öz oyuncaqlarına çevirə bildiklərinə görə şadlanır, bu səbəblə də əl çalırdılar".

Deputat söyləyib ki, ümumiyyətlə, son dövrlər bir sıra Avropa dövlətlərində Azərbaycana qarşı qərəzli qərar və qətnamələr qəbul olunur, ölkəmiz əleyhinə qüvvələrin fəallaşması müşahidə edilir: "Xarici qüvvələr Azərbaycanın ard-arda əldə etdiyi qələbələri həzm edə bilmirlər. Məlumdur ki, Prezident İlham Əliyev dünyada güclü siyasətçi, mahir diplomat kimi tanınır. Xalqımız Prezidentini sevir, ona inanır və güvənir. Hər kəsə bəllidir ki, münaqişələrlə dolu müasir dünyada İlham Əliyevdən başqa heç bir dövlət başçısı işğal altında qalmış torpaqları azad edib ölkə ərazisində öz suverenliyini, ərazi bütövlüyünü təmin etməyi bacarmayıb. Prezident İlham Əliyev BMT-nin daimi üzvü, siyasi və hərbi cəhətdən güclü olan Fransanın müstəmləkəçi olduğunu, digər ölkələrə qarşı neokolonializm siyasəti həyata keçirdiyini bütün dünyaya açıq şəkildə sübut edib".

Deputatın sözlərinə görə, Ermənistan rəhbərliyi unutmamalıdır ki, bu gün onlara saxta dəstək nümayiş etdirən, silahlandırmaq istəyən dövlətlər sonda onları meydanda tək qoyacaqlar. Bu riyakarlıq bəzi dövlətlərin xislətində var. Fransa məsələlərə hər zaman ikili standartlarla yanaşan bir dövlət kimi, yalnız öz ambisiyalarını düşünür, beynəlxalq hüququn bütün norma və prinsiplərini pozur. Bu mənada Ermənistan da onlardan geri qalmır. İrəvan həmişə vəziyyətə uyğun olaraq öz tərəfdaşlarına qarşı satqınçılıq edib.

Kamilə Əliyeva bildirib ki, Ermənistan hakimiyyəti ölkəsinin mövcudluğunun və inkişafının region dövlətləri ilə, xüsusən də Azərbaycanla mehriban qonşuluq münasibətlərindən keçdiyini anlamalıdır. Onu unutmamalıdır ki, İrəvan və havadarlarının necə mövqe nümayiş etdirmələrindən asılı olmayaraq, Azərbaycan gələcəkdə bugünkündən daha güclü, qüdrətli və nüfuzlu bir dövlətə çevriləcək.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 30 noyabr, № 261.- S.7.